Azərabyacan Respublikası
kənd təsərrüfatı nazirinin
06.09.2018 *tarixli,*
123 *nömrəli əmri*
ilə təsdiq edilmişdir.

Kənd təsərrüfatı məhsullarının qiymət məlumat bazası (informasiya ehtiyatının) idarəedilməsi ilə bağlı

METODİKİ GÖSTƏRİŞLƏR

1. Ümumi müddəalar

1.1. Bu Metodiki Göstərişlər bundan sonra "Qiymət məlumat bazası" adlandırılacaq. "Kənd təsərrüfatı məhsullarının qiymət məlumat bazası"na (informasiya ehtiyatına) Azərbaycan Respublikasında istehsal edilən və ölkəyə idxal olunan kənd təsərrüfatı məhsullarının satış qiymətləri barədə məlumatların toplanmasına və qiymət məlumat bazaya daxil edilməsinə məsul olan qurumların vəzifələrinin müəyyən edilməsi, məhsulların qiymətləri üzrə məlumatların formaları, mənbələri və toplanma dövriliyinə dair məsələlərin tənzimlənməsi, habelə kənd təsərrüfatı məhsulları bazarı iştirakçılarının operativ şəkildə məlumatlandırılmasını təmin etmək məqsədilə hazırlanmışdır.

1.2. Qiymət məlumat bazası www.aqrarbazar.az domen ünvanında yerləşir.

2. Kənd təsərrüfatı məhsullarının qiymət məlumat bazasının məhsullar və qiymətlər üzrə strukturu

2.1. Qiymət məlumat bazası aşağıdakı məhsul qruplarını əhatə edir:

2.1.1. Meyvə, tərəvəz, kartof və bostan məhsulları;

2.1.2. Heyvandarlıq məhsulları (ət, süd, yumurta, bal);

2.1.3. Dənli bitkilər (buğda, arpa, qarğıdalı dəni, düyü);

2.1.4. Texniki bitkilər və sənaye xammalı təyinatlı digər məhsullar (pambıq, tütün, şəkər çuğunduru, qarğıdalı, günəbaxan, zeytun, yaşıl çay yarpağı, barama, yun, gön-dəri);

2.1.5. İstehsal vasitələri (ot yemi, gübrə, damazlıq heyvan).

2.2. Hər bir qrup üzrə məhsulların növləri Əlavə 1, Əlavə 2-də verilmişdir.

2.3. Qiymət məlumat bazası aşağıdakı qiymət məlumatlarını əhatə edir:

2.3.1. Meyvə, tərəvəz, kartof və bostan məhsullarının tarladan satış (o cümlədən, mövsümdən sonra anbardan və istixanadan satış), topdansatış, pərakəndə satış və emal müəssisələri tərəfindən tədarük qiymətləri;

2.3.2. Heyvandarlıq məhsullarının (ət, süd, yumurta, bal) pərakəndə satış qiymətləri;

2.3.3. Ətin və yumurtanın topdansatış qiymətləri;

2.3.4. Ətin diri çəkidə satış qiymətləri;

2.3.5. Südün qəbul məntəqələri tərəfindən satın alınan qiymətləri;

2.3.6. Yunun və gön-dərinin əhali və ya ət kəsimi məntəqələri tərəfindən satış qiymətləri;

2.3.7. Dənli bitkilərin mövsüm dövründə sahədən (fermer) satış və mövsümdən sonra topdansatış qiymətləri;

2.3.8. Texniki bitkilərin və sənaye xammalı təyinatlı digər məhsulların (pambıq, tütün, şəkər çuğunduru, texniki sort üzüm, qarğıdalı, günəbaxan, zeytun, yaşıl çay yarpağı, barama, yun, gön-dəri) tədarük müəssisələri tərəfindən satın alınan qiymətləri;

2.3.9. İstehsal vasitələrinin (ot yemi, gübrə, damazlıq heyvan) pərakəndə satış və ot yeminin əlavə olaraq sahədən və ya topdansatış qiymətləri.

2.4. Bütün məhsul növləri və ya çeşidləri üzrə qiymətlər aşağı, orta və yuxarı səviyyələr nəzərə alınmaqla toplanılır.

3. Kənd təsərrüfatı məhsullarının qiymət məlumat bazasının məlumat mənbələri və məlumatların toplanma dövriliyi

3.1. Qiymət məlumat bazasının məlumat mənbələri və məlumatların toplanması dövriliyi müxtəlif məhsul qrupları və qiymət məlumatları üzrə aşağıdakı kimi müəyyən olunmuşdur:

3.1.1. Meyvə, tərəvəz, kartof və bostan məhsullarının pərakəndə satış qiymətləri üzrə məlumat mənbələri və məlumatların toplanması dövriliyi:

Qiymət toplanan bazarlar (və ya satış yerləri)	Məlumatın toplanmasına məsul qurum	Məlumatın toplanma dövriliyi
8-ci km bazarı (Bakı) Təzə bazar (Bakı) Yaşıl bazar (Bakı) Sumqayıt Mərkəzi Bazarı Gəncə Mərkəzi Bazarı Şəmkir bazarı Tovuz bazarı Yevlax bazarı Göyçay bazarı Ucar bazarı Şamaxı bazarı Şəki bazarı Beyləqan bazarı Bərdə bazarı Sabirabad bazarı Salyan bazarı Cəlilabad bazarı Lənkəran bazarı Xaçmaz bazarı	Bakı şəhərində fəaliyyət göstərən bazarlardan məlumatlar "Aqrar Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxsin əməkdaşları, digər şəhər və rayonlarda fəaliyyət göstərən bazarlardan məlumatlar isə Dövlət Baytarlıq Xidmətinin yerli qurumlarının əməkdaşları tərəfindən toplanılır. **Qeyd:** *Məlumatların toplanılması Dövlət Aqrar İnkişaf Mərkəzləri tərəfindən koordinasiya olunur.*	Bakı şəhərində fəaliyyət göstərən bazarlardan həftədə 2 dəfə, digər şəhər və rayonlarda fəaliyyət göstərən bazarlardan həftədə 1 dəfə

3.1.2. Meyvə, tərəvəz, kartof və bostan məhsullarının topdansatış qiymətləri üzrə məlumat mənbələri və məlumatların toplanması dövriliyi:

Qiymət toplanan bazarlar (və ya satış yerləri)	Məlumatın toplanmasına məsul qurum	Məlumatın toplanma dövriliyi
8-ci km bazarı (Bakı) Yaşıl bazar (Bakı)		Bakı şəhərində

Meyvəli bazarı (Bakı) Gəncə bazarı	Bakı şəhərində fəaliyyət göstərən bazarlardan məlumatlar "Aqrar Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxsin əməkdaşları tərəfindən, Gəncə şəhərində fəaliyyət göstərən bazardan isə Dövlət Baytarlıq Xidmətinin yerli qurumlarının əməkdaşları tərəfindən toplanılır.	fəaliyyət göstərən bazarlardan həftədə 2 dəfə, digər şəhər və rayonlarda fəaliyyət göstərən bazarlardan həftədə 1 dəfə

3.1.3. Meyvə, tərəvəz, kartof və bostan məhsullarının tarladan satış (o cümlədən, mövsümdən sonra anbardan və istixanadan satış) qiymətləri üzrə məlumat mənbələri və məlumatların toplanması dövriliyi:

Qiymət toplanan bazarlar (və ya satış yerləri)	Məlumatın toplanmasına məsul qurum	Məlumatın toplanma dövriliyi
Abşeron, Ağcabədi, Ağdam, Ağdaş, Ağsu, Ağstafa, Astara, Balakən, Bərdə, Beyləqan, Biləsuvar, Cəlilabad, Daşkəsən, Füzuli,Göyçay, Göygöl, Gədəbəy, Goranboy, İmişli, İsmayıllı, Kürdəmir, Lənkəran, Oğuz, Qax, Qazax, Qəbələ, Qobustan, Qusar Quba, Hacıqabul, Neftçala, Şamaxı, Masallı, Şabran Saatlı, Sabirabad, Salyan, Samux, Şəki, Şəmkir, Tərtər, Tovuz, Ucar, Xaçmaz, Yardımlı, Yevlax, Zaqatala, Zərdab rayonları, Şirvan və Gəncə şəhər və rayonları.	Məlumatlar "Dövlət Aqrar Ticarət Şirkəti" Məhdud Məsuliyyətli Cəmiyyətinin əməkdaşları tərəfindən toplanılır.	Hər həftənin ikinci və beşinci günləri

3.1.4. Emal müəssisələri tərəfindən meyvə, tərəvəz, kartof və bostan məhsullarının alış qiymətləri üzrə məlumat mənbələri və məlumatların toplanması dövriliyi:

Qiymət toplanan bazarlar (satış yerləri)	Məlumatın toplanmasına məsul qurum	Məlumatın toplanma dövriliyi
Abşeron, Ağdaş, Ağsu, Balakən, Cəlilabad, Göyçay,	Məlumatlar "Dövlət Aqrar Ticarət Şirkəti" Məhdud	Tədarükün həyata keçirildiyi dövr

Göygöl, Lənkəran, Qazax, Qəbələ, Quba, Sabirabad, Salyan, Şəki, Şəmkir, Tovuz, Ucar, Zaqatala, Xaçmaz rayonlarında fəaliyyət göstərən emal müəssisələri	Məsuliyyətli Cəmiyyətinin əməkdaşları tərəfindən toplanılır.	ərzində hər həftənin beşinci günü

3.1.5. Heyvandarlıq məhsullarının pərakəndə satış qiymətləri üzrə məlumat mənbələri və məlumatların toplanması dövriliyi:

Qiymət toplanan bazarlar (satış yerləri)	**Məlumatın toplanmasına məsul qurum**	**Məlumatın toplanma dövriliyi**
8 km bazarı (Bakı) Təzə bazar (Bakı) Yaşıl bazar (Bakı) Sumqayıt Mərkəzi Bazarı Gəncə Mərkəzi Bazarı Şəmkir bazarı Tovuz bazarı Yevlax bazarı Göyçay bazarı Ucar bazarı Şamaxı bazarı Şəki bazarı Beyləqan bazarı Bərdə bazarı Sabirabad bazarı Salyan bazarı Cəlilabad bazarı Lənkəran bazarı Xaçmaz bazarı	Bakı şəhərində fəaliyyət göstərən bazarlardan məlumatlar "Aqrar Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxsin əməkdaşları tərəfindən, digər şəhər və rayonlarda fəaliyyət göstərən bazarlardan isə Dövlət Baytarlıq Xidmətinin yerli qurumlarının əməkdaşları tərəfindən toplanılır. **Qeyd:** *Məlumatların toplanılması Dövlət Aqrar İnkişaf Mərkəzləri tərəfindən koordinasiya olunur.*	Bakı şəhərində fəaliyyət göstərən bazarlardan həftədə 2 dəfə, digər şəhər və rayonlarda fəaliyyət göstərən bazarlardan isə həftədə 1 dəfə

3.1.6. Ətin və yumurtanın topdansatış qiymətləri üzrə məlumat mənbələri və məlumatların toplanması dövriliyi:

Qiymət toplanan bazarlar (satış yerləri)	**Məlumatın toplanmasına məsul qurum**	**Məlumatın toplanma dövriliyi**
Bakı, Sumqayıt , Abşeron Şabran, Siyəzən, Hacıqabul, İsmayıllı şəhər və rayonlarında fəaliyyət	Məlumatlar Dövlət Baytarlıq Xidmətinin yerli qurumlarının əməkdaşları tərəfindən toplanılır.	Hər həftənin beşinci günü

göstərən bazarlar	**<u>Qeyd:</u>** *Məlumatların toplanması Dövlət Aqrar İnkişaf Mərkəzləri tərəfindən koordinasiya olunur.*	

3.1.7. Ətin diri çəkidə satış qiymətləri üzrə məlumat mənbələri və məlumatların toplanması dövriliyi:

Qiymət toplanan bazarlar (satış yerləri)	Məlumatın toplanmasına məsul qurum	Məlumatın toplanma dövriliyi
Bərdə, Ağcabədi, İmişli, Tovuz, Göygöl, Ağdaş, Ucar, Xaçmaz, Cəlilabad, Şamaxı rayonlarında fəaliyyət göstərən heyvan bazarları	Məlumatlar Dövlət Baytarlıq Xidmətinin yerli qurumlarının əməkdaşları tərəfindən toplanılır. **<u>Qeyd:</u>** *Məlumatların toplanması Dövlət Aqrar İnkişaf Mərkəzləri tərəfindən koordinasiya olunur.*	Hər həftənin beşinci günü

3.1.8. Südün qəbul məntəqələri tərəfindən satın alınan qiymətləri üzrə məlumat mənbələri və məlumatların toplanması dövriliyi:

Qiymət toplanan bazarlar (satış yerləri)	Məlumatın toplanmasına məsul qurum	Məlumatın toplanma dövriliyi
Abşeron, Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar,Salyan, Göyçay, Göygöl, İsmayıllı, Ağdam, Kürdəmir, İmişli, Lənkəran, Quba, Şəki, Tərtər, Zaqatala rayonlarında fəaliyyət göstərən süd qəbulu məntəqələri	Məlumatlar "Dövlət Aqrar Ticarət Şirkəti" Məhdud Məsuliyyətli Cəmiyyətinin əməkdaşları tərəfindən toplanılır.	Hər həftənin beşinci günü

3.1.9. Yunun və gön-dərinin əhali və ya ət kəsimi məntəqələri tərəfindən satış qiymətləri üzrə məlumat mənbələri və məlumatların toplanması dövriliyi:

Qiymət toplanan bazarlar (satış yerləri)	Məlumatın toplanmasına məsul qurum	Məlumatın toplanma dövriliyi
Abşeron, Sabirabad, Cəlilabad, Ağcabədi, Ağdaş İmişli, Bərdə, Masallı, Şəki,	Məlumatlar Dövlət Baytarlıq Xidmətinin yerli qurumlarının əməkdaşları	Hər ayın son günü

Yevlax, Saatlı, Quba, Kürdəmir, Salyan, Şəmkir, Zaqatala, Ucar, Beyləqan, Xaçmaz, Gədəbəy, Zərdab, Lənkəran, İsmayıllı, Göyçay, Qəbələ, Tovuz, Goranboy, Neftçala, Qusar, Ağsu, Biləsuvar, Şamaxı, Qobustan, Oğuz rayonlarında fəaliyyət göstərən satış yerləri	tərəfindən toplanılır. **<u>Qeyd:</u>** *Məlumatların toplanması Dövlət Aqrar İnkişaf Mərkəzləri tərəfindən koordinasiya olunur*	

3.1.10. Dənli bitkilərin mövsüm dövründə sahədən (fermer) satış və mövsümdən sonra topdansatış qiymətləri üzrə məlumat mənbələri və məlumatların toplanması dövriliyi:

Qiymət toplanan bazarlar (satış yerləri)	Məlumatın toplanmasına məsul qurum	Məlumatın toplanma dövriliyi
Ağcabədi, Ağdam, Ağdaş, Ağsu, Astara, Balakən, Bərdə, Beyləqan, Biləsuvar, Cəlilabad, Daşkəsən, Gəncə, Göyçay, Göygöl, İmişli, Ismayıllı, Kürdəmir, Lənkəran, Oğuz, Qax, Qazax, Qəbələ, Quba, Saatlı, Sabirabad, Salyan, Samux, Şəki, Şəmkir, Tərtər, Tovuz, Ucar, Xaçmaz, Yardımlı, Yevlax, Zaqatala, Zərdab, Ağstafa, Füzuli, Qobustan, Qusar, Hacıqabul, İsmayıllı, Goranboy, Neftçala, Şamaxı, Masallı rayonlarında fəaliyyət göstərən satış yerləri	Məlumatlar "Dövlət Aqrar Ticarət Şirkəti" Məhdud Məsuliyyətli Cəmiyyətinin əməkdaşları tərəfindən toplanılır.	Hər həftənin beşinci günü

3.1.11. Texniki bitkilərin və sənaye xammalı təyinatlı digər məhsulların tədarük müəssisələri tərəfindən satın alınan qiymətləri üzrə məlumat mənbələri və məlumatların toplanması dövriliyi:

Qiymət toplanan bazarlar (satış yerləri)	Məlumatın toplanmasına məsul qurum	Məlumatın toplanma dövriliyi
Abşeron, Ağcabədi, Ağdam, Ağdaş, Ağsu, Astara, Balakən, Bərdə, Beyləqan, Biləsuvar, Cəlilabad, Daşkəsən, Göyçay, Göygöl, İmişli, Ismayıllı, Kürdəmir, Lənkəran, Oğuz, Qax, Qazax, Qəbələ, Quba,	Məlumatlar Dövlət Aqrar İnkişaf Mərkəzlərinin əməkdaşları tərəfindən toplanır.	Tədarükün həyata keçirildiyi dövr ərzində hər həftənin beşinci günü

Saatlı, Sabirabad, Salyan, Samux, Şəki, Şəmkir, Tərtər, Tovuz, Ucar, Xaçmaz, Yardımlı, Yevlax, Zaqatala, Zərdab rayonlarında, Bakı, Sumqayıt və Gəncə şəhər və rayonlarda yerləşən tədarük müəssisələri		

3.1.12. İstehsal vasitələrinin (ot yemi, gübrə, damazlıq heyvan) pərakəndə satış və ot yeminin sahədən və ya topdansatış qiymətləri üzrə məlumat mənbələri və məlumatların toplanması dövriliyi:

Qiymət toplanan bazarlar (satış yerləri)	**Məlumatın toplanmasına məsul qurum**	**Məlumatın toplanma dövriliyi**
Sabirabad, Cəlilabad, İmişli, Bərdə, Ağcabədi, Ağdaş, Masallı, Şəki, Yevlax, Saatlı, Quba, Kürdəmir, Salyan, Şəmkir, Zaqatala, Ucar, Beyləqan, Xaçmaz, Gədəbəy, Zərdab, Lənkəran, İsmayıllı, Göyçay, Qəbələ, Tovuz, Goranboy, Neftçala, Qusar, Ağsu, Biləsuvar, Şamaxı, Qobustan, Oğuz, Abşeron rayonlarında fəaliyyət göstərən satış yerləri	Otun qiyməti üzrə məlumatlar Dövlət Aqrar İnkişaf Mərkəzlərinin, yerli cins damazlıq heyvanların qiymətləri isə Dövlət Baytarlıq Xidmətinin yerli qurumlarının əməkdaşları tərəfindən toplanılır. Gübrənin və idxal olunmuş damazlıq heyvanlarının qiymətləri "Aqrolizinq" ASC tərəfindən təmin olunur. **Qeyd:** *Məlumatların toplanması Dövlət Aqrar İnkişaf Mərkəzləri tərəfindən koordinasiya olunur.*	Hər ayın ortasında və sonunda

4. Yekun müddəalar

4.1. Kənd təsərrüfatı məhsullarının qiymət məlumat bazasının fəaliyyətinin idarəedilməsi "Aqrar Tədqiqatlar Mərkəzi" publik hüquqi şəxs tərəfindən həyata keçirilir, zəruri texniki dəstək isə Kənd Təsərrüfatı Nazirliyinin İnformasiya texnologiyalarının tətbiqi və elektron idarəetmə şöbəsi tərəfindən təmin edilir.

4.2. Kənd təsərrüfatı məhsullarının qiymət məlumat bazası üzrə məlumatların toplanmasına məsul qurumların rəhbərləri müvafiq qiymət məlumatlarının müəyyən olunmuş dövrilikdə və keyfiyyətli şəkildə təqdim edilməsinə məsuliyyət daşıyırlar.

Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin 2018-ci il 06 sentyabr tarixli, 123 nömrəli əmri ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsullarının qiymət məlumat bazasının idarəedilməsinə dair Metodiki Göstərişlər"ə 1 nömrəli əlavə

Cədvəl 1. Topdan, pərakəndə və sahədən satış, həmçinin emal müəssisələri tərəfindən tədarük qiymətləri toplanacaq meyvə, tərəvəz, kartof və bostan məhsulları

Meyvə	*alma, alça, armud, çiyələk, ərik, əzgil, feyxoa, fındıq, gavalı, gilas, gilənar, göyəm, heyva, karalyok, kivi, limon, mandarin, moruq, nar, portağal, qarağat, qoz, şabalıd, şaftalı, süfrə üzümü, xurma, zoğal, əncir, kinkan*
Tərəvəz	*pomidor, xiyar, lobya, badımcan, bibər, süfrə çuğunduru, göyərti, kələm, turp, sarımsaq, soğan, sütül, noxud, kök, kartof*
Bostan	*qarpız, yemiş, balqabaq*

Cədvəl 2. Pərakəndə satış qiymətləri toplanacaq heyvandarlıq məhsulları

İribuynuzlu heyvan əti	*cavan qaramal əti (sümüklü), cavan qaramal əti (sümüksüz), yaşlı qaramal əti (sümüklü), yaşlı qaramal əti (sümüksüz), dondurulmuş mal əti, mal içalatı*
Xırdabuynuzlu heyvan əti	*cavan qoyun əti, yaşlı qoyun əti, dondurulmuş qoyun əti, qoyun içalatı*
Quş əti	*kənd toyuğu, sənaye üsulu ilə yetişdirilmiş toyuq əti, toyuq budu, toyuq içalatı*
Yumurta	*kənd yumurtası, sənaye üsulu ilə istehsal olunmuş yumurta*
Bal	*yerli, idxal*
Süd	*inək südü*

Cədvəl 3. Topdansatış qiymətləri toplanacaq ət və yumurta məhsulları

İribuynuzlu heyvan əti	*cavan qaramal əti (sümüklü), cavan qaramal əti (sümüksüz), yaşlı qaramal əti (sümüklü), yaşlı qaramal əti (sümüksüz), dondurulmuş mal əti, mal içalatı*
Xırdabuynuzlu heyvan əti	*cavan qoyun əti, yaşlı qoyun əti, dondurulmuş qoyun əti, qoyun içalatı*
Quş əti	*sənaye üsulu ilə yetişdirilmiş toyuq əti, toyuq budu, toyuq içalatı*
Yumurta	*sənaye üsulu ilə istehsal olunmuş yumurta*

Cədvəl 4. Diri çəkidə satış qiymətləri toplanacaq heyvandarlıq məhsulları

İribuynuzlu heyvan	*cavan qaramal, yaşlı qaramal*
Xırdabuynuzlu heyvan	*cavan qoyun, yaşlı qoyun*
Quş əti	*kənd toyuğu*

Cədvəl 5. Əhali və ya ət kəsimi məntəqələri tərəfindən satış qiymətləri toplanacaq yun və gön-dəri məhsulları

Qaba yun	*təmzilənmiş, təmizlənməmiş*
Gön-dəri	*iribuynuzlu heyvan dərisi, xırdabuynuzlu heyvan dərisi*

Cədvəl 6. Mövsüm dövründə sahədən (fermer) satış və mövsümdən sonra topdansatış qiymətləri toplanacaq dənli bitkilər və ot məhsulları

Dənli bitkilər və ot	*buğda*
	arpa
	qarğıdalı dəni
	düyü
	ot (küləş, yonca, çəmən otu)

Cədvəl 7. Tədarük müəssisələri tərəfindən satın alınan qiymətləri toplanacaq texniki bitkilər və sənaye xammalı təyinatlı digər məhsullar

Texniki bitkilərin və sənaye xammalı təyinatlı digər məhsullar	*pambıq*
	tütün
	şəkər çuğunduru
	texniki sort üzüm
	qarğıdalı
	günəbaxan
	zeytun
	yaşıl çay yarpağı
	barama
	yun
	gön-dəri

Cədvəl 8. Pərakəndə satış qiymətləri toplanacaq istehsal vasitələri

İstehsal vasitələri	Gübrə
	Ot yemi
	Cins damazlıq heyvanlar (iribuynuzlu, xırdabuynuzlu)

Azərabyacan Respublikası kənd təsərrüfatı nazirinin 2018-ci il 06 sentyabr tarixli, 123 nömrəli əmri ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsullarının qiymət məlumat bazasının idarəedilməsinə dair Metodiki Göstərişlər"ə 2 nömrəli əlavə

Topdan, pərakəndə və sahədən satış, həmçinin emal müəssisələri tərəfindən tədarük qiymətləri toplanacaq meyvə, tərəvəz, kartof və bostan məhsullarının çeşidləri

Meyvələrin adları və çeşidləri	
Alma	*qəndi sinab, qızıl əhmədi, qala, palmet, qolden delişes, rejef, simerenko, fuji, qrani smit, cır-hacı, canatan, şafran, jeromen, slava, yay alması, bumajnı, cənnət alması*
Armud	*duşes, konfrans, daş armud, meşə gözəli, paxan, nar armud, qırmızı, gülşən, lətifə, krasavica, alyanaq, paslı*
Çiyələk	*Cəlilabad, Sabirabad, Masallı, Türkiyə*
Ərik	*badam ərik, qırmızı yanaq, Türkiyə*
Əzgil	*Şəki, Balakən*
Gavalı	*armudu, qara payızı, digər*
Gilas	*Şəmkir, Xaçmaz, Quba, Salyan, Sabirabad, Ağdaş, Qazax, Ağstafa, Tərtər, İran, Gürcüstan, Türkiyə*
Gilənar	*Şəmkir, Xaçmaz, Quba, İmişli, Sabirabad, Ağstafa, Tərtər, İran, Türkiyə*
Heyva	*Salyan, Hacıqabul, Göyçay, İmişli, Quba, Ucar, Sabirabad, İran, Türkiyə*
Karalyok	*Gəncə, Şəmkir, Salyan, Xaçmaz, Goranboy, Göygöl, Göyçay, Balakən*
Limon	*Astara, Lənkəran, Braziliya, İran, Türkiyə*
Moruq	*Şəmkir, Göygöl, Daşkəsən*
Mandarin	*yerli, Türkiyə, İran, Gürcüstan, Braziliya*
Nar	*Hacıqabul, Göyçay, Ağsu, İmişli, Kürdəmir, Salyan, Sabirabad, Ucar*
Qarağat	*qara, qırmızı*
Şaftalı	*Xaçmaz, Şəmkir, Quba, Şabran, fədai, nektarin,*
Üzüm	*ağ kişmişi, qara kişmişi, ağadayı, dərbəndi, maldavan, mərəndi, kardinal, keçiməməsi, mahmudu, alfons, qara şanı, ağ şanı, digər*
Xurma	*Göyçay, Goranboy, Bərdə, Balakən, Şəmkir, Zaqatala*
Zoğal	*Göygöl, Daşkəsən, Qazax, Tovuz, butulka, boçka*
Portağal	*yerli, Misir, Afrika, İran, Türkiyə*
Kivi	*yerli, idxal*
Feyxoa	*yerli, idxal*
Şabalıd	*yerli, Çin, Gürcüstan, Türkiyə, Ukrayna*
Qoz	*yerli, Gürcüstan, Özbəkistan, Rusiya, Türkiyə, Ukrayna*
Fındıq	*yerli, göy qabıqlı, Gürcüstan, Türkiyə*

Tərəvəz məhsullarının adları və çeşidləri	
Pomidor	*Göyçay, Şəmkir, Biləsuvar, Goranboy, Salyan, Şirvan, Qazax, Bakı, Sabirabad, Şabran, Zirə, Masallı, Lənkəran, Xaçmaz Sultan, Xaçmaz Salyan mayovka, Salyan bal dağ, bəndəmli, Azərsun, çəhrayı, salxım, göy, Gürcüstan, İran, Türkiyə*
Xiyar	*Bərdə, Bakı, Ağdaş, Salyan, Şəmkir, Sabirabad, Qusar, Lənkəran, Masallı, Biləsuvar, Xaçmaz, Balakən, Göyçay, tikanlı, melit, patron, yelpənək, Gürcüstan, İran, Türkiyə*
Lobya	*Şəmkir, Ağdaş, Sabirabad, Qazax, Xaçmaz, Salyan, Masallı, Saatlı, Sabirabad, Lənkəran, Astara, Quba, Ağstafa, Bərdə, Tovuz, Şəki, İran, Türkiyə*
Badımcan	*Masallı, Sabirabad, Xaçmaz, Şəmkir, Salyan, Azərsun, İran, Türkiyə*
Bibər	*acı, yaşıl, qırmızı, İran, Türkiyə*
Süfrə çuğunduru	*Gədəbəy, Bərdə, Tərtər, Şəmkir, İmişli, Salyan, Bakı, Tovuz, İran, Gürcüstan, Türkiyə*
Kələm	*Ağdaş, Bərdə, Bakı, Qusar, Gədəbəy, Qazax, Sabirabad, Türkiyə (qırmızı kələm), Gürcüstan*
Sarımsaq	*Ağsu, Tovuz, Sabirabad, Salyan, Masallı, Yardımlı, Ağdaş, Göyçay, Xaçmaz, İran, Türkiyə, Çin*
Soğan	*ağ soğan, qırmızı soğan, Ağdam sarı, Ağcabədi, Beyləqan, Füzuli, Quba, Sabirabad, Bakı, Rusiya, İran, Türkiyə*
Kök	*Bərdə, Tərtər, Sabirabad, Şəmkir, Tovuz, Gədəbəy, İran, Türkiyə*
Kartofun çeşidləri	
Tovuz, Gədəbəy, Cəlilabad, Qusar, Şəmkir, qırmızı kartof, təzə kartof, Gürcüstan, Türkiyə, Rusiya, Hollandiya, Misir, Pakistan, İran	
Bostan məhsullarının adları və çeşidləri	
Qarpız	*Sabirabad, Bərdə, Ağcabədi, Saatlı, Salyan, Beyləqan, Kürdəmir, Yevlax, İmişli, Zərdab, İran, Astarxan, Orta Asiya*
Yemiş	*Sabirabad, Saatlı, Kürdəmir bildirçin, Kürdəmir kolxoz, Kürdəmir carço, İmişli, Beyləqan, Bərdə, Salyan, Yevlax, İran, Orta Asiya*
Balqabaq	*Sabirabad, Masallı, Astara, Tərtər*

Pərakəndə satış qiymətləri toplanacaq istehsal vasitələrinin
(ot, gübrə və damazlıq heyvanlar) çeşidləri

İstehsal vasitələrinin adları və çeşidləri	
Ot yemi	*küləş, yonca, çəmən otu*
Gübrə	*ammonium nitrat, ammonium sulfat, karbamid, superfosfat, ammofos, kalium sulfat, nitroammofoska*
Damazlıq heyvanlar	*İrubuynuzlu: şvis, simmental, holtşin-friz, aberdin-anqus, şarole, yerli (5 litrə qədər süd verən, 5-10 litrə qədər süd verən, 10-15 litrə qədər süd verən, 15-20 litrə qədər süd verən, 20 litrdən çox süd verən)*
	Xırdabuynuzlu: saanen (keçi), alpin (keçi), asaf (qoyun), yerli